***Tofiq Mahmud***

## *Xocalıdan gələn uşaq*

Sakit-sakit baxır mənə
Xocalıdan gələn uşaq.
Xalq dərdini hamıdan çox
Duyan, görən, bilən uşaq...

Ayrı düşüb dağ-daşından,
Çıxıb ölüm savaşından.
Öz dərdini bu yaşından
Xalq dərdiylə bölən uşaq.

Oddan keçib bir ər kimi,
Yaralanıb əsgər kimi...
Elə bil ki, ağrı duymur.
Məhəl qoymur
Yara alıb harasından.
Əzab çəkir, ağrı duyur
Təkcə ürək yarasından!

Gah od görən, gah qan görən.
Neşə-neçə insan görən.
Qeyrət, nifrət, tufan görən
Göz yaşını silən uşaq!

Öz gücünə bel bağlayan,
Kişi kimi mərd saxlayan.
Nə sızlayan, nə ağlayan,
Nə sevinib, gülən uşaq...

Bapbalaca igidimdir,
Tariximdir, şahidimdir,
Sabahımdır, ümidimdir
Xalq dərdini hamıdan çox
Duyan, görən, bilən uşaq...

Öz dərdini bu yaşından
Xalq dərdiylə bölən uşaq...
Tariximdir, şahidimdir,
İnamımdır, ümidimdir
Xocalıdan gələn uşaq!

***Mahmud T. Xocalıdan gələn uşaq : şeir // Xalq qəzeti. – 1992. – 4 may.***